**Azərbaycan Respublikası**
**Xarici İşlər Nazirliyi**

Haraya: **SSOF**
Göndərilmə nömrəsi: S/32-3388/02/17 Tarix: 07.02.17
Sənəd necə göndərilir: **Elektron poçt +** Dippoçt
Səhifələrin sayı: **1** Əlavə: 2 vərəq + 1 CD
Məhdudluğu qrifi: **Adi**
Təciliyi: **Adi**
Vacibliyi: **Adi**

**Azərbaycan Respublikasının**
**Bolqarıstan Respublikasındakı**
**səfiri xanım Nərgiz Qurbanovaya**

**Hörmətli xanım səfir,**

Nəzərinizə çatdırırıq ki, bu ilin 27 yanvar tarixində Azərbaycan Respublikasının İsveçrə Konfederasiyasındakı Səfiri ilə Bolqarıstanın İşveçrədəki Səfiri arasında müqabil tərəfin xahişi əsasında görüş keçirilmişdir.

Görüşdə Bolqarıstan tərəfi sürtkü yağlarının istehsalı üzrə ixtisaslaşmış Bolqarıstanın "Prista Oil" şirkətinin Azərbaycanda əməkdaşlıq əlaqələrinin yaradılması imkanları barədə məlumat vermiş və bu şirkətin SOCAR ilə işbirliyi qurulmasında maraqlı olduğunu qeyd etmişdir.

Bununla, görüşün yazısını və "Prista Oil" şirkətinin SOCAR-la əməkdaşlığın qurulmasına dair təkliflərini təqdim edirik.

Məktubun ünvanı üzrə çatdırılmasından öncə Səfirlik tərəfindən şirkət barədə müvafiq araşdırmanın aparılması, fəaliyyəti, tərəf müqabilləri, layihələri və s. barədə məlumatın əldə edilməsi və Mərkəzin məlumatlandırılmasını xahiş edirik.

**Hörmətlə,**

**Nazir müavini** **Mahmud Məmməd-Quliyev**

MlƏl-nin rəisi Anar Hüseynov

MlƏl-nin şöbə müdiri Etibar Abdullayev

MlƏl-nin birinci katibi v.i.e. Samir Əhmədov

Katiblik üçün: s/3073/17

**Azərbaycan Respublikasının**
**İsveçrə Konfederasiyası və Lixtenşteyn Knyazlığındakı**
**Səfirliyi**

| | |
|---|---|
| **Haradan:** | SBRN |
| **İcra üçün:** | MİƏİ |
| Məlumat üçün | MİAV, MBAV, SSOF |
| **Sənədin nömrəsi:** | SBRN/030/17 **Tarix:** 31.01.2017 |
| **Sənəd necə göndərilir:** | Elektron poçt |
| **Səhifələrin sayı:** | 2 vərəq |
| **Əlavə olunur:** | **12 v.** |
| **Məhdudluq qrifi:** | Adi |
| **Təcililiyi:** | Adi |
| **Vacibliyi:** | Adi |

**Məsələyə dair**: *Bolqarıstanın İsveçrədəki səfiri xanım Meqlena Pluqçieva ilə görüşə dair*

**Azərbaycan Respublikası**
**Xarici işlər nazirinin müavini**
**cənab Mahmud Məmməd-Quliyevə**

**Hörmətli Mahmud müəllim,**

Bildiririk ki, 27 yanvar 2017-ci il tarixində səfir Əkrəm Zeynallı ilə Bolqarıstanın İsveçrədəki səfiri xanım Meqlena Pluqçieva arasında müqabil tərəfin xahişi əsasında görüş keçirilmişdir.

Görüşün məqsədi Bolqarıstanın sürtgü yağlarının istehsalı üzrə ixtisaslaşmış "Prista Oil" şirkətinin Azərbaycanla əməkdaşlıq imkanlarının müzakirəsindən ibarət olmuşdur. 500 nəfər işçiyə malik şirkətin Bolqarıstanla yanaşı Türkiyə və Özbəkistanda da fabrikləri mövcuddur və şirkət dünyanın 40 ölkəsi ilə əməkdaşlıq edir (şirkətə dair ətraflı məlumatı www.prista-oil.com internet ünvanından əldə etmək mümkündür).

Görüşün əvvəlində səfir Meqlena Pluqçieva qeyd etmişdir ki, Sürix şəhərində keçirilmiş bir biznes forumda sözügedən şirkətin rəhbərliyi ona müraciət edərək, Azərbaycanla əməkdaşlıq əlaqələrinin inkişaf etdirilməsində müvafiq köməklik göstərməsini xahiş etmişdir.

Pluqçieva "Prista Oil" şirkətinin əməkdaşlıq təklifi ilə bağlı ətraflı məlumat verərək qeyd etmişdir ki, sürtkü yağları istehsal edən zavodun inşasını nəzərdə tutan biznes planı 5 ili əhatə edir və 3 mərhələdən ibarətdir. "Prista Oil" şirkəti AR Dövlət Neft Şirkəti ilə Birgə Müəssisə qurulmasını təklif edir. 1-ci mərhələdə, satış və marketinq üzrə Birgə Müəssisənin qurulması təklif edilir. 2-ci mərhələdə, hazır sürtkü yağlarının istehsalını həyata keçirən fabrikin inşası, 3-cü mərhələdə isə neft tullantılarının utilizasiyası və təkrar emalını həyata keçirən fabrikin inşası təklif edilir. Bunun üçün proqnozlaşdırılan investisiyanın həcmi isə 30 milyon ABŞ dolları təşkil edir.

AR Dövlət Neft Şirkətinin Azərbaycanla yanaşı Avrapanın bir çox ölkəsində yanacaq doldurma məntəqələrinə sahib olması, "Prista Oil" şirkəti ilə ortaq biznes coğrafiyasına malik olması "Prista Oil" şirkətində AR Dövlət Neft Şirkəti ilə əməkdaşlıqda maraq oyadır. Digər tərəfdən, AR Dövlət Neft Şirkətinin sürtkü yağları istehsal edən fabrikinin olmaması və bu sahədə yüksək təcrübəyə malik mütəxəssislərə ehtiyacının olması əməkdaşlığı Azərbaycan tərəfi üçün də maraqlı edən amillərdəndir ("Prista Oil" şirkətinin əməkdaşlıq təklifi əlavə olunur).

M.Pluqçieva qeyd etmişdir ki, Bolqarıstan Respublikasının Prezidenti R.Plevnelievin 2015-ci ildə həyata keçirilmiş Azərbaycana səfəri zamanı sözügedən şirkətin rəhbərliyi də nümayəndə heyətində yer almış, AR Dövlət Neft Şirkəti ilə ilkin müzakirələr aparmışdır. Lakin daha sonra müzakirə prosesində hər hansı irəliləyiş müşahidə olunmamış, əməkdaşlıq təklifi ilə bağlı müsbət və ya mənfi münasibət Bolqarıstan tərəfinə bildirilməmişdir.

Səfir Əkrəm Zeynallı əməkdaşlıq təklifi ilə bağlı ölkəmizin aidiyyəti qurumlarının məlumatlandırılacağını bildirmiş, əməkdaşlıq təklifi ökəmizin aidiyyəti qurumları tərəfindən nəzərdən keçirildikdən sonra məsələ ilə bağlı mövqe bildirə biləcəyini qeyd etmişdir.

Nəzərdən keçirilməsini xahiş edirik.

**Hörmətlə,**

Əkrəm Zeynallı
Səfir

İcraçı: E.Muradov